# İnsayder əqdi barədə məlumat

"Unibank" Kommersiya Bankı Açıq Səhmdar Cəmiyyətinin aşağıda göstərilən iri səhmdarları arasında bağlanan alqı-satqı əqdi nəticəsində cənab Eldar Qəribovun Bankın Nizamnamə kapitalında iştirak payı 41,9091%-dən artaraq 77,3839%-ə qaldırılmışdır. Avropa Yenidənqurma və İnkişaf Bankının iştirak payı isə 9% təşkil etmişdir. Əqdin bağlanmasından sonra Eldar Qəribovun mülkiyyətində emitenti "Unibank" Kommersiya Bankı Açıq Səhmdar Cəmiyyəti olan adi adlı sənədsiz səhmlərin sayı 35 757 739 ədəd, Avropa Yenidənqurma və İnkişaf Bankının isə mülkiyyətində olan adi sənədsiz adlı səhmlərin sayı 4 158 737 ədəd təşkil etmişdir.

Bu əqd Bankın törəməsi olan "Unicapital" İnvestisiya Şirkəti Açıq Səhmdar Cəmiyyətinin vasitəçiliyi ilə birjadankənar qaydada bağlanmış və həcmi 16 392 273 ədəd adi adlı sənədsiz səsli səhmdən ibarət olmuşdur, yəni Bankın bütün səhmlərinin Nizamnamə kapitalına olan faiz nisbətinin 35,4748%-ni təşkil etmişdir.

"Unibank" Kommersiya Bankı Açıq Səhmdar Cəmiyyəti 1992-ci ildən fəaliyyət göstərir. Bankın hal-hazırda Nizamnamə kapitalı 125 686 356 manatdır, 46 208 219 ədəd adi adlı sənədsiz səsli səhmlərdən ibarətdir.

"Unibank" Kommersiya Bankı Açıq Səhmdar Cəmiyyətinin hüquqi ünvanı: Bakı şəhəri, Rəşid Behbudov küçəsi 55, məhəllə 384.